# Musiqiyə bükülmüş şeirlər

**Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Azərbaycanın xalq şairi, "Şöhrət" və "Şərəf" ordenli, Əməkdar incəsənət xadimi, dövlət və bir sıra mükafatlar laureatı Fikrət Qocanın (Qocayev Fikrət Göyüş oğlunun) 2015-ci ildə "Seçilmiş əsərləri" 10 cilddə çap olunmuş və Dövlət mükafatına layiq görülmüşdür. Şair əsərlərini xüsusi bölgü əsasında qruplaşdıraraq cildlərə ayırmış və 7-ci cilddə ancaq musiqi bəstələnmiş şeirlərini vermişdir. Burada 51 bəstəkarın bəstələdiyi 282 və bəstəkarı göstərilməmiş beş mahnı yer almışdır. Bundan əlavə 7-ci cilddə Fikrət Qocanın "Kitaba bir neçə söz" başlıqlı yazısı da daxil edilmişdir. Şair ön söz kimi söylədiyi bu yazısında mahnı üçün yazılan şeirlər haqqında deyir: "Mənim anlamımda onlar şeir deyil. Doğrudur, istisnalar var. Amma mahnı kollektiv zəhmətin bəhrəsidir. Burada ən azı üç adam iştirak edir: bəstəkar, şair, müğənni. Yekunda mahnı üç yaradıcı insanın birgə məhsuludur. Yazdığım şeirdə onların təklifinə görə düzəlişlər edirəm. Nəticədə itirir və ya qazanırsa da, hər halda tək mənim olmağımdan çıxır" (səh.4). Müəllif söylədiyi bu dəyərli fikirlər mahnı yazılmış şeirlər üçün meyar sayılmalıdır. Mahnı şərh edilərkən bu meyar və ölçülərin gözlənilməsi əsas şərtlərdən biri olmalıdır. Belə olmazsa müəyyən arqumentlər pozular və şərhlərdə yanlışlığa yol verilər.**

Cilddə ilk musiqisi göstərilən bəstəkar Tofiq Quliyevdir. O, Fikrət Qocanın 10 şeirinə, "Onu bağışlamaq olarmı?", "Qaynana" və "Qızmar günəş altında" filmələrinə aid yazdığı mətnlərə musiqi yazmışdır. Öncə yer alan mahnı "Azərbaycanım"dır. Şeirdə Azərbaycanın təbii gözəllikləri dinləyicinin nəzərinə poetik dillə çatdırılır. Mahnınını nəqarət hissəsində deyilir:

**Gözüm nuru, könlüm odu**
**Azərbaycan, Azərbaycan.**
**Əziz anam, odlar yurdu**
**Azərbaycan, Azərbaycan.**

"Məhəbbət" şeirinə bəslətənmiş mahnıda dünyaya, həyata vurğunluq böyül şövqlə tərənnüm etdirilmişdir. İnsanın dünyaya aşıq olması onun yaşamağa həvəsini daha da artırır. Dünya və həyat insan üçün həmişə əlçatmaz olduğu mahnının bütün ruhunda əks olunmuşdur. İnsan duyğularına mahnı sanki yeni işıq salır:

**Böyük dünya,**
**Şirin dünya,**
**Görən sənə aşıq olur.**
**Sənin eşqin, məhəbbətin**
**Gözümüzə işıq olur.**

Bununla bahəm mahnıda qədim əfsanələrimizdə deyilən hər insanın bir tale ulduzu olduğu göstərilir. İnsan dünyadan köç edənəd onun tale ulduzu da sönüb gedir:

**Kainatın yolçusuyuq,**
**Yer üzüdür mənzilimiz.**
**Ulduz kimi doğuluruq,**
**Ulduz kimi axırıq biz.**

"Qaynana" filminə yazılmış "Mehribanlıq" mahnısında ailədə olan mehribançılığın xoş məqamları əks olunur. Mehribanlıq ailə üçün həmişə xoşbəxtlik və səadət gətirir. Filmdə qaldırılan əsas məsələ qaynana və gəlin münasibətləridir.

Qaynana-gəlin arasında mehribanlıq yaratmaq üçün Fikrət Qoca filmin ssenarisinə uyğun maraqlı şeir yazmış və Tofiq Quliyev də mahnı bəstələmişdir. Mahnıda deyilir:

**Mehribanlıq səadətdir,**
**Səadəti yaşadağın.**
**Ömrün şvqü məhəbbətdir,**
**Məhəbbəti yaşadağın.**

Daha sonra filmdə qardaşoğlu ilə bibi arasında olduqca təbii bir mükalimə də verilmişdir. Bu da bibinin müəyyən özünəməxsus xarakterik cəhətlərinə işıq salır:

**Bibi, bibi, can bibi,**
**Can sənə qurban bibi.**
**Hənа yaxım başına,**
**Olarsan cavan bibi.**
**Pulları çin-çin bibi,**
**Sir-sifəti cin bibi.**
**Bibi: Nə dedin, ay avara?**
**Dedim göyərçin bibi.**
**Bibi: Necə-necə ay avara?**
**Dedim göyərçin bibi.**

Ecazkar səsi ilə ürəkləri fəth edən, müğənni Rəşid Behbudov Fikrət Qocanın "Əlvida" şeirinə mahnı bəstələmişdir. Sanki şair Rəşid Behbudovun həyatının son anlarını əvvəlcədən hiss edərək bu şeiri qələmə almışdır. Rəşid Behbudov isə ömrünün faciəli anına bu musiqini yazmışdır:

**Əlvida,**
**Qəlbimin sevdası.**
**Əlvida,**
**Eşqin uzaq sədası,**
**Əlvida.**
**Yolları dolaşıb dünyada,**
**Çaşıb qaldım mən.**
**Əlvida, əlvida, əlvida.**

Ağabacı Rzayeva şairin "Lənkəran bağlarında" və "Fərəhli Bakımız" şeirlərinə musiqi bəstələmişdir. "Lənkəran bağlarında" mahnısında zəhmətkeş Lənkəran qızlarının əməyinə yüksək qiymət verilir və onları "Yurdumun ulduzları" adlandırır.

**Lənkəranın qızları,**
**Yurdumun ulduzları.**
**Bunlar adi qız deyil,**
**Evlərin işığıdır.**
**Bu qızlar el şöhrəti,**
**Tarla yaraşığıdır.**

Bəstəkar Arif Məlikov Fikrət Qocanın "Lay-lay", "Dön, geri bax", "Sən gəlmədin", "İnandım" və "Günəş ürəkli" şeirlərinə musiqi yazmışdır. Bu mahnıların hər biri öz gözəl cəhətləri ilə ürəklərə yol tapır.

"Dön, geri bax" mahnısı sevən ürəyin hərarətli döyüntülərini özündə əks etdirir:

**Öz eşqimə yanaram mən,**
**Öz bəxtimi sınaram mən,**
**Sən baxmasan, donaram mən.**
**Dön, geri bax, ey yar,**
**Sən mənə bax, ey yar.**

Fikrət Qocanın "Qoy desinlər", "Neftçilər mahnısı", "Toy olsun", "Bir şərqi de!" və "Bahara məni" şeirlərinə bəstəkar Vasif Adıgözəlov bir-birinə bənzəməyən yeni boyada bənzərsiz mahnılar yazmışdır. "Bahara məni" mahnısında sevən aşıqın iztirabları öz əksini tapmışdır:

**Can alan bir baxışın var,**
**Çəkibsən dara məni.**
**Düşüb ay tək dumana,**
**Eylədin avara məni...**

Şəfiqə Axundova şairin "Şəfalı əllər" və "Anama məktub" şeirlərinə musiqi bəstələmişdir. "Şəfalı əllər" mahnısında həkimlərin şəfalı əllərindən və ümidverici sözlərindən danışılır.

**Təbəssümün nə yaxşıdı,**
**Sükutun yaz yağışıdı.**
**Həkimlərin baxışıdı,**
**Xəstələrin ümid yeri.**

Vətəndən uzaqlarda yaşasa da, ürəyi həmişə Vətən üçün döyünən görkəmlil müğənnimiz Müslüm Maqomayev Fikrət Qocanın "İllər keçir" və "Sözün rəngi" şeirlərinə mahnı yazmışdır. Onun "İllər keçir" mahnısı illərin ötüb keçdiyini, zamanın dəyişdiyini lirik hisslərlə göstərir.

**Ey ürəyim,**
**Alovlu məhəbbətim.**
**İllər gedir,**
**Aylar uçur,**



**İllər keçir,**
**Zaman gedir.**
**İllər yaman gedir,**
**Ey sevən ürək,**
**Sən cavan yaşa.**

Ramiz Mirişli yaradıcılığında Fikrət Qoca şeirləri önəmli yer tutur. O, şairin "Amerikalı kürəkən" pyesinə və 64 şeirinə mahnı bəstələmişdir. Bəstəkar Fikrət Qocanın şeirlərinin ruhuna uyğun yazdığı hər bir mahnı dinləyicilər tərəfindən rəğbətlə qarşılanmışdır.

Həmin mahnılardan "Səndən danışdı", "Bayram axşamlarında", "Ay qəlbi kövrək", "Küsüb məndən", "Azərbaycan gözəlləri", "İlk sevgi", "Bəri bax" və s. adını çəkmək olar.

**Yollar əlvan boyanar,**
**Evlərdə arzu yanar.**
**Gözlərə sevinc qonar,**
**Bayram axşamlarında.**

Və:

**Bir qıyğacı baxışından**
**Bir ömür-gün işıqlanar.**
**Saçlarında gecə yatar,**
**Gözlərində günəş yanar,**
**Azərbaycan gözəlləri.**

Və:

**Bir kəlmə sözüm**
**Dəydi xətrinə,**
**Ay qəlbi kövrək,**
**Nə dedim sənə.**
**Yada saldım, xəbər aldım,**
**Səni yollardan, güllərdən mən.**

Və:

**Ay şöhrətim, şanım mənim,**
**Halı pərişanım mənim,**
**Küsüb məndən, özgələrdən**
**Məni soruşanım mənim.**

Və:

**Göydə ulduz gilə-gilə,**
**Qırmaq olmur gilə-gilə.**
**Mən baxıram, qəlbim yanır,**
**Sən baxırsan gülə-gülə.**

Və yaxud:

**Mən sənə neyləmişəm,**
**Ay bəri bax, bəri bax.**
**Sənə ulduz deyiblər,**
**Mən də gözəl demişəm.**

Bəstəkar Rəşid Nəsiboğlu şairin "Odlar diyarı", "Qatarı yola salmaq", "Görəsən", "Gecənin nəğməsi", "Vals", "Yol" və "Gətirmisən səhəri" şeirlərinə musiqi bəstələmişdir. Hər bir mahnı öz pozitiv cəhətləri ilə dinləyicilərin ürəyində yeni xoş əhval-ruhiyyə yaradır.

**Qaranlıq saçlarımı**
**Bu dünyaya sərmişəm.**
**Sizin üçün mən şirin**
**Bir yuxu gətirmişəm.**

Fikrət Qocanın "Qonşunun bir qızı var", "Yazda qaranquş gəlir" və "Dan yeri söküləndə" şeirlərinə sevimli bəstəkarmız Xəyyam Mirzəzadə mahnı bəstələmişdir.

**Gecə keçər,**
**Sükutu dinlərəm mən.**
**Bütün gecə**
**Daş olub dinmərəm.**
**Göydən nur töküləndə,**
**Dan yeri söküləndə,**
**Dinərəm, deyərəm, gülərəm.**

Maraqlı bəstələri ilə yaddan çıxmayan və həmişə iftixar hissi ilə yad edilən Telman Hacıyev də Fikrət Qocanın 19 şeirinə musiqi bəstələmişdir. Onlardan "Vətən süitası", "Səni haylaram", "Nazlı qız", "Arazım", "Bənövşə bəndə düşə", "Sevən baxışlar", "Ay dostlarım, gəlin", "Gözləyən var məni", "Ellərin qızısan", "Mənim baharım" və başqalarının adını çəkmək olar.

**Axma qəlbimdən mənim,**
**Axma, a həsrət Arazım,**
**Könlümün arzusuna**
**Olma sən sərhəd, Arazım.**
**Biz gəldik iki qardaş**
**Bu çayın sahilinə,**
**Yuyulaydı ürəyimdən**
**Acı, möhnət Arazım.**

Və:

**Buludların ağlamasın,**
**Ürəyimi dağlamasın,**
**Məni yoldan saxlamasın,**
**Gözləyən var məni.**

Bəstəkar Emin Sabitoğlu Fikrət Qocanın sözlərinə "Sən ürəyimsən", "Səni səsləyirdim", "Payız gəldi ", "Avtomobil müfəttişi" və "Baladadaşın ilk məhəbbəti" kinofilminə "Keçdiyim bütün yollar" mahnılarını yazmışdır.

**Payız gəldi, uçdu getdi quşlar,**
**Sən də getdin, bax, yağdı yağışlar.**
**Payız gəldi, qərib oldu dəniz,**
**Bu dənizin gözü yaşlı sənsiz.**

Və:

**Ürəyimi atsam da,**
**Öz qəlbimi atmaram,**
**Sənə olan eşqimi**
**Sənə də alçaltmaram.**

Adil Bəbirov şairin "Mən anayam", "Qəlbim nura boyanacaq", "Bilmirsən özün", "Mənim dostlarım", "Yollar", "İstəyirəm körpə olum", "Gəlirəm mən", "Gözəl dünya" və "Səninlə" şeirlərinə mahnı bəstələmişdir. Onun hər bir mahnısı öz füsunkarlığı ilə dinləyicinin qəlbini riqqətə gətirir.

**Yol ömürdü,**
**Yol həyat.**
**Yol düşüncə, kainat.**
**Arzum bu yollar,**
**Ömrüm bu yollar,**
**Yol-ömürdü,**
**Yol - həyat.**

Və:

**Sənsiz bəxtim gözü yox,**
**Bir ocağam, közü yox.**
**Sənsiz ötən ömrümün**
**Dadı yox, duzu yox.**

**(ardı növbəti sayımızda)**

**Sabir Rüstəmoğlu (Məmmədov),**
**ADPU-nun Ağcabədi**
**filialının dosenti,**
**AYB və AJB-nın üzvü**